499:1.QXD 25.09.2022 0:53 Page 1
www.arsivakurdi.org

KÜRD xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

# DÎPLOMAT

№ 35 (499) 17-23 Îlon Sentyabr sal. il 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: Hêjaye: 40 qəpik

# "BAKI-TBİLİSİ-CEYHAN" "Əsrin müqaviləsi"ndən 28 il ötdü


Səh. 2
Prezident İlham Əliyev Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib


Səh. 4-5
GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ


Səh. 18
Главы ДПК и ПСК обсудили проблемы создания нового правительства Ирака


Səh. 13
Serokwezîrê Herêma Kurdistanê bi Alîkara Wezîrê Berevaniyê yê Amerîkayê re civiya


Səh. 10
Kerkuki: Kürdistan Parlamentosu Kerkük için bir vali seçmeli


Səh. 12
Husên: Heta çar salên din Amerîka wê alîkariya hêzên Pêşmerge bike


Səh. 12
Nêçîrvan Barzanî pîrozbahî li Yekîtiya Zanayan kir

## Gəncədə "Şuşanamə" kitabının təqdimatı keçirilib Səh. 3

## Hüseyin Siyabend Aytemur: Kürtler, Irak'a en iyi cevabı 'Bağımsızlık Referandumu' ile vermiştir Səh. 10

## ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ Səh. 7

## Ji Serhedê ber bi Yekaterînbûrgê Səh. 11

## AZƏRBAYCANDA FEODAL DÖVLƏTLƏRİ Səh. 8-9

## Keça Kurd Jîna Emînî piştî îşkenceya hêzên Îranê jiyana xwe ji dest da Səh. 13


Səh. 18
Германия призывает руководство Ирана прислушаться к протестующим женщинам



Səh. 12
Li Diyarbekirê kuştina Jîna Emînî hat protestokirin


Səh. 13
Fransa: Girtin û mirina Jîna Emînî ji aliyê Îranê ve em hejandin

499:1.QXD 25.09.2022 0:53 Page 2

www.arsivakurdi.org



# Prezident İlham Əliyev Türkiyənin səhiyyə nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul edib.

Fahrettin Koca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında sarsılmaz birlik və qardaşlıq əlaqələri bütün digər qurumlar kimi, Səhiyyə nazirlikləri arasında da əməkdaşlıq üçün yol göstəricisidir və bu baxımdan ölkələrimizin nazirlikləri sıx əməkdaşlıq həyata keçirir.

Türkiyənin səhiyyə naziri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması dərin sevinc hissi bəxş edir. Nazir şəhidlərlə bağlı başsağlığı verdi, qazilərə şəfa dilədi. Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan Fahrettin Koca bu sənəddə əksini tapan hədəflər istiqamətində səhiyyə sahəsində də əlaqələri inkişaf etdirmək və dərinləşdirmək üçün çalışdıqlarını bildirdi.

Türkiyəli nazir dedi ki, ölkəsində səhiyyə sahəsində əldə olunan təcrübəni və elmi bilikləri azərbaycanlı həmkarlarla bölüşmək qardaşlıq borcudur. O, dövlətimizin başçısının dəstəyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun əhəmiyyətindən danışdı.

Prezident İlham Əliyev Özbəkistanda Türkiyənin dövlət başçısı ilə görüşünü məmnunluqla xatırladı, dostluq və qardaşlıq əlaqələrimizin



bütün sahələrdə durmadan inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Şuşa Bəyannaməsinə toxunaraq bunu münasibətlərimizin rəsmi təzahürü kimi qiymətləndirdi, bu Bəyannamənin xalqlarımızın iradəsini, dövlətlərimizin maraqlarını əks etdirdiyini dedi.

Azərbaycan Prezidenti həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə həkimləri tərəfindən qazilərimizin müalicəsinə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı qeyd etdi, bu baxımdan səhiyyə sahəsində də əlaqələrin təqdirəlayiq olduğunu dedi və Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun önəminə toxundu.

# Prezident İlham Əliyev Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib



Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısı "Laçın" Qovşaq Yarımstansiyasının təməlini qoydu.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə "Laçın" Qovşaq Yarımstansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində inşa olunacaq rəqəmsal yarımstansiya Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış layihə üzrə tikiləcək. Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Belə ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarına, oradan isə "Güləbird" Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, "Daşkəsən" yarımstansiyasından "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt "Laçın" şəhər yarımstansiyası ilə əlaqələndiriləcək. Beləliklə, 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaq. Bununla da, işğaldan azad olunmuş ərazilərdəki yüksəkgərginlikli xətlərdən birində qəza baş verərsə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə oraya gərginlik veriləcək. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaq.

Diqqətə çatdırıldı ki, strateji əhəmiyyətə malik bu yarımstansiyada müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri, sabit və dəyişən cərəyan qurğuları, 35 kV-luq və 10 kV-luq qapalı paylayıcı qurğular ilə təchiz olunmuş İdarəetmə Mərkəzi, ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu yaradılacaq, həmçinin işçi heyət üçün xüsusi yataqxana korpusu tikiləcək.

Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulacaq və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunacaq.

"Laçın" Qovşaq Yarımstansiyasında yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə nasosxana binası, yanğın su hovuzu, qəza yağ tutumu, yanğından mühafizə və yanğın xəbərverici sistemləri də quraşdırılacaq.

# Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın rayonuna səfər edib.

Dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yeni inşa olunan tunel barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur. Hazırda bu yolun və yol üzərində tunellərin inşası davam etdirilir.

Məlumat verildi ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. Yolboyu tikintisi nəzərdə tutulmuş 12 avtomobil tunelindən 5-nin (T1, T2, T5, T6 və T7) tikinti işləri uğurla davam etdirilir.

Bildirildi ki, dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bundan başqa, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınıb. Tunellər bir istiqamət üzrə bir hərəkət zolaqlı və 11,60 metr enində olacaq. Tunellərin ümumi uzunluğu 7596,5 metr təşkil edəcək.

Qeyd edildi ki, Kəlbəcər-Laçın yolunda inşa olunan birinci tunelin (T1) uzunluğu 187 metrdir. Hazırda bu tunelin giriş portalının tikintisi həyata keçirilir. Uzunluğu 354,4 metr olan T2 tunelində giriş istiqaməti üzrə 115,8 metr qazma işləri görülüb. Uzunluğu 448,7 metr olan T5 tunelində çıxış istiqaməti üzrə 331 metr qazma işləri aparılıb. T6 tunelinin uzunluğu 612,4 metrdir. Tuneldə hər bir istiqamət üzrə ümumilikdə 537,4 metr qazma işləri yerinə yetirilib. T7 tuneli 2420,1 metr uzunluğunda olmaqla inşa edilir. Tunelin hər bir istiqaməti üzrə ümumilikdə 532 metr qazma işləri görülüb. Bu tunellərdə giriş və çıxış olmaqla hər iki istiqamətdə qazma, partlatma və qırıcı üsullarla qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam etdirilir.

Bildirildi ki, layihələndirilən digər tunellərdə isə işlərə mərhələlərlə başlanılması nəzərdə tutulur. T3 tuneli 900,2 metr, T4 tuneli 853,7 metr, T8 tuneli 230 metr, T9 tuneli 700 metr, T10 tuneli 200 metr, T11 tuneli 320 metr və T12 tuneli 370 metr uzunluğunda olacaq.

Diqqətə çatdırıldı ki, Kəlbəcər-Laçın avtomobil yolu boyunca torpaq yatağı üçün təməlin hazırlanması, yamacların formaya salınması, 12 düzbucaqlı və 4 dairəvi borunun inşası işləri davam etdirilir.

Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3



və 4 hərəkət zolaqlı olmaqla, birinci, ikinci və üçüncü texniki dərəcələrə uyğun olaraq inşa edilir. Yolun ilk 38 kilometrlik hissəsində suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 3348 metr olan 60 dairəvi boru, həmçinin zəruri yerlərdə ümumi uzunluğu 1038 metr olan 9 avtomobil körpüsünün inşası nəzərdə tutulur.

Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

499:1.QXD 25.09.2022 0:53 Page 3



# Daşkəsəndə peşə və sahə assosiasiyalarının yaradılmasının dəstəklənməsi ilə bağlı iclas keçirilib

Sentyabrın 22 də Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən tədbir Azərbaycan Respublikası Prezidentinin 13



fevral 2020-ci il tarixli, 1816 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nın 4.5-ci bəndinin (Peşə və sahə assosiasiyaları yaradılmasının dəstəklənməsi) icrasının təmin edilməsi məqsədi daşıyıb.

İclasda Daşkəsən RİH-nin məsul işçiləri, Daşkəsən KOB dostu, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rayon bölməsinin, Dövlət Məşğulluq Agentliyinin rayon xidmət şöbəsinin, dövlət idarələri və ictimai xidmət təşkilatlarının, təhsil, səhiyyə və mədəniyyət işçiləri həmkarlar ittifaqlarının rayon komitələrinin nümayəndələri, rayon bələdiyyə şurasının sədri və müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

İclas Daşkəsən RİHB-nin müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Vüqar Məmmədovun sədrliyi ilə keçirilib. Daşkəsən RİH-nin başçısı Əhəd Abıyevin adından iştirakçılara salamlarını çatdırdıqdan sonra Vüqar Məmmədov bildirib ki, peşə və sahə assosiasiyaların yaradılması sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, məşğulluğun artırılması, məlumatlılıq səviyyəsinin yüksəldilməsi, sahibkarların maraqlarının müdafiəsi baxımından çox əhəmiyyətlidir.

İcra başçısının müavini çıxışında məlumat verib ki, Daşkəsən rayonu üzrə 2022-ci ilin 6 ayı ərzində 165 min manat yerli özəl investisiya qoyuluşu olmuşdur ki, bunun sayəsində 14 yeni iş yeri yaradılmışdır. Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur.

Digər çıxış edənlər də, rayonda peşə və sahə assosiasiyaları yaradılmasının dəstəklənməsinin vacibliyini qeyd edib, müxtəlif mülahizələr irəli sürüblər.

İclasda diqqətə çatdırılıb ki, sahibkarlara öz fəaliyyət göstərdikləri istiqamətlərdə tələb olunan ixtisaslı işçilərin hazırlanmasında Dövlət Məşğulluq Agentliyi və rayonda fəaliyyət göstərən Peşə məktəbi vasitəsilə də müvafiq köməkliklər olunur.

Rayon ərazisində müxtəlif sahələr üzrə faailiyyət göstərən sahibkarlar tərəfindən assosiasiyaların yaradılması üçün Daşkəsən Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən qanunamüvafiq dəstək göstəriləcəkdir.

# Gəncədə "Şuşanamə" kitabının təqdimatı keçirilib



Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi", Prezident təqaüdçüsü, alim-şair Bayram Ağrıdağın (Apoyev) "Şuşanamə" kitabının təqdimat mərasimi keçirilib.

Təqdimatda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, Azərbaycan Yazıçılar Birliyinin Gəncə Bölməsinin nümayəndələri, şəhər ziyalıları, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.

Əvvəlcə Vətən müharibəsi şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Niyazi Bayramov çıxışında bildirib ki, Şuşa fatehləri və Qarabağ şəhidlərinə həsr olunan "Şuşanamə" kitabı şəhidlərimizin və müharibə iştirakçılarımızın xatirəsinin daim əbədi saxlanılması üçün atılan addımlardan biridir. O, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Rəşadətli ordumuz tərəfindən Şuşa şəhərinin işğaldan azad edilməsinin 44 günlük Zəfər tariximizin ən önəmli hadisələrindən olduğunu qeyd edib. Şəhər rəhbəri yazıçı Bayram Apoyevi kitab təqdimatı ilə əlaqədar olaraq təbrik edib, ona yaradıcılığında uğurlar arzulayıb.

Çıxış edən qonaqlar yazıçının həyat və yaradıcılığına nəzər salıblar. Bildirilib ki, Bayram Apoyev 100-dən çox elmi-metodik əsərin, 3 monoqrafiyanın, 3 dərsliyin, 4 dərs və tədris vəsaitinin, 12 metodik vəsaitin müəllifidir. Bayram Apoyevin Nizami Gəncəvinin pedaqoji görüşlərinə həsr olunmuş 5 kitabı işıq üzü görüb. "Şuşanamə" isə müəllifin 6-cı kitabıdır. Kitaba müəllifin 1992-2022-ci illər ərzində Vətən, Qarabağ, ölkəmizin mədəniyyət paytaxtı – Şuşa və işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşən Azərbaycan əsgəri haqqında yazdığı şeirləri daxil edilib. Gəncə Şəhər İcra Hakimiyyətinin tövsiyəsi və dəstəyi ilə hazırlanmış və nəşrə təqdim edilmiş kitab "Şuşa ili" və Şuşa fatehlərinə ithaf olunub.

Tədbirdə həmçinin, 4 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimləri tərəfindən pianoda milli vətənpərvərlik ruhunda olan musiqi parçaları ifa olunub.

Çıxışlardan sonra Niyazi Bayramov müəllifə Gəncə şəhərinin ictimai-mədəni həyatında göstərdiyi səmərəli fəaliyyətinə görə Gəncə Şəhər İcra Hakimiyyətinin "Təşəkkürnamə"si, Vasif Cənnətov mədəniyyət sahəsində göstərdiyi səmərəli fəaliyyətinə görə Gəncə Regional Mədəniyyət İdarəsinin "Təşəkkünamə"sini təqdim ediblər.

Qeyd edək ki, tədbir yazıçı, dramaturq, şair, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR əməkdar elm xadimi Mir Cəlal Paşayevin Ev Muzeyində gerçəkləşib.

# Vətən müharibəsi şəhidi Rüstəm Hacıyevin ad günü məzarı önündə qeyd olundu

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Tərtər ray-



onunun Yuxarı Qapanlı kənd sakini Hacıyev Rüstəm Firqani oğlununun doğum günü məzarı önündə qeyd olunub.

Bu münasibətlə Tərtər Rayon İcra Hakimiyyətində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Ülvi Nəcəfov, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, şəhidlərin ailə üzvləri, qazilər, veteranlar, kənd sakinləri və şəhidin yaxınları şəhidin məzarını ziyarət edərək önünə gül dəstələri düzüb, ruhuna dualar oxuyublar.

Rüstəm Hacıyev 1999-cu ilin sentyabr ayının 22-də Tərtər rayonunun Yuxarı Qapanlı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Hacıyev Rüstəm 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Tərtər rayonu Yuxarı Qapanlı kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Şəhidimiz son mənzilə yola salındı

Ermənistan silahlı qüvvələri tərəfindən Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan



istiqamətlərində törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən şəhid olmuş Laçın rayonunun Sadınlar kəndindən olan Azərbaycan ordusunun zabiti, leytenant İsgəndərov Qorxmaz İsgəndər oğlunun nəşi Ağcabədi rayonuna gətiriləək Taxta Körpü ərazisindəki məzarlıqda dəfn olunub.

Böyük izdihamla keçirilən vida mərasimində rayon rəhbərliyi, şəhid ailələrinin üzvləri, rayon ictimaiyyəti iştirak edib. Şəhidin ruhuna dualar oxunub, müxtəlif şüarlar səsləndirilib.

Dəfn zamanı əbədi xatirə kimi saxlanılması üçün üçrəngli müqəddəs bayrağımız şəhidin atasına təqdim olunub.

www.arsivakurdi.org

499:1.QXD 25.09.2022 0:53 Page 4



# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ

## “Əsrin müqaviləsi”ndən 28 il ötdü

**Dünyanın inqilab sistemi, siyasətçiləri Azərbaycan xalqının xilaskarı, Ulu Öndər, Böyük Heydər Əliyev cənablarının inqilabından,**



**böyük siyasətindən dərs almalı və örnək götürməlidirlər. Bəlki, Ulu Öndər, Böyük Heydər Əliyev güllə atmadan, xalqın xahişi və tələbi ilə hakimiyyətə gəldi, Azərbaycanı və Azərbaycanda yaşayan azsaylı xalqları böyük fəlakətdən xilas etdi.**

Bəli Ümummilli lider, Böyük Heydər Əliyev mülki geyimdə təyyarədən düşdü və ilk işi qardaş qırğını baş verən Gəncəbasara getdi, silahsız, qorumasız. Qısa müddətdə ölkənin sabitliyini pozan bütün silahlı qüvvələrə elə siyasi gediş etdi ki, onlar silahları ilə birlikdə gəlib “torbaya” girdilər və bir də ayıldılar ki, cəzaçəkmə məntəqələrindədirlər. Heç kimin təsəvvür etmədiyi qısa bir vaxtda atəşkəs elan etdi və respublikada sabitliyi yaratdı. Böyük humanistlik edərək, ömürlük həbsə məkum edilən o silahlı dəstələrin rəhbərlərini azadllığa buraxaraq dedi: “Siz gedin ailələrinizi idarə edin, sizlər dövləti idarə etməyə qadir deyilsiniz”.

Bəli bir güllə atmadan hakimiyyətə gəldi və yasxanaları toyxanalarla əvəz etdi, Azərbaycanı dünyaya tanıtdı, indiki sabitlik, inkişaf göz qabağındadır.

Görürsünüz, Suriyada neçə illərdir qardaş qırğını gedir, Mustafa Kamalın Cümhuriyyətin yaranmasında edilən qətliyamlar və yaranan gündən bu günə qədər qardaş qanı axıdılır. İnanırıq ki, Türkiyənin indiki baş naziri Rəcəb Təyyib Ərdoğan cənabları, Heydər Əliyev siyasətindən dərs alaraq Türkiyədə yüz ilə yaxın davam edən qardaş qırğınına son qoyacaqdır.

Səddam kimi diktator qan tökərək hakimiyyətə gəldi, gedən günə qədər həmvətənlərinin qanını tökdü və başına gələnlər hamıya məlumdur.

Belə diktatorların sayını artırmaq olar.

Lakin bunlardan fərqli olaraq, dünya siyasətçiləri öndərlərindən olan, Ulu Öndər, Böyük Heydər Əliyev bir güllə atmadan hakimiyyətə gəldi və müdrik siyasəti nəticəsində Azərbaycanımızı inkişaf etmiş ölkələr sırasına çıxardı. Bəli, dünya siyasətçiləri, rəhbərləri Ulu Öndər, Böyük Heydər Əliyev siyasətini öyrənib və bəhrələnməlidirlər.

Zaman keçdikcə, Ulu Öndər, Böyük Heydər Əliyev siyasətinin dərinliyini daha aydın görmək olur. Təsəvvür edin, əgər Ulu Öndər, Heydər Əliyev hakimiyyətə vaxtında gəlməsəydi, atəşkəs müqaviləsi bağlanmasayıdı, ermənilər Azərbaycan torpaqlarına olan təcavüzünü bir az da genişləndirərək, özlərinin dediyi kimi, Gənsəbasar da daxil olmaqla, Kürə qədər işğal edə bilsəydilər. Bir anlığa təsəvvür edin, Gəncəbasarın köçkünləri, ermənyə girov düşənləri, Gürcüstana, Rusiyaya qaçanları, malı-mülkü bir anın içində əlindən çıxaraq girov, qaçqın-köçkün halına düşən xalqın durumu necə ola bilərdi? Onsuz da problemlər içində yaşayan Borçalı mahalındakı soydaşlarımızın durumunu, Türkiyənin Azərbaycanla və türk dünyası ilə əlaqəsinin kəsildiyini düşünərək nəticəni ağıla gətirmək kifayətdir.Ermənilərin əlinə düşəcək Mingəçevir su anbarının suyu buraxılsaydı, bir an başımıza gələcək faciələrin böyüklüyünü düşünmək lazımdır. Kür çayı hövzəsində olan şəhər, rayon və kəndlərimizin əhalisinin durumunu göz önünə gətirmək kifayətdir.

Gəncəbasarın işğalı, Avropa qapılarının, Avropa bazarının üzümüzə bağlanması demək olardı. Biz məcburi yenə də keçmiş "ağamız" olan rus çinovniklərinin boyunduruğu artına yalvararaq, xahiş edərək keçməli idik.

Hələ mən Əlikram Hümmətovun "Talış-Muğan" Respublikasından, onun gələcəkdə İran İslam Respublikasına birləşməsindən, Sürət Hüseynovun "xanlığından", şimaldan rusların ləzgilərin "Sabval" təşkilatının əli ilə Siyəzənə qədər ərazi iddiasından, Balakən, Qax, Qəbələ kimi strateji bölgələrə göz tikənlərdən danışmıram.

Dünya dövlətlərinin rəhbərləri humanistliyi, uzaqgörənliyi, əfv etməyi, bağışlamağı Azərbaycanın cavan prezidenti İlham Əliyev cənablarından öyrənməlidirlər. İlham Əliyev cənabları neçə-neçə ömürlük həbsə məhkum olunmuş insanları əfv etdi, ümidsiz ailələri sevindirdi və Azərbaycandakı münaqişə ocaqlarını uzaqgörən siyasəti ilə aradan götürdü. İlham Əliyev cənablarının humanist siyasəti Türkiyə, İran, Suriya kim ölkələrin dövlət rəhbərlərinə örnək olmalıdır.

### *"Bakı-Tibilisi-Ceyhan" əsrin dünyəvi sülh müqaviləsi*

Bizi bütün bu bəlalardan Heydər Əliyevin uzaqgörən siyasəti qurtardı. Onun uzaqgörən siyasəti, həyata keçirdiyi dünyəvi layihələr, böyük dövlətlər, beynəlxalq birliklər, təşkilatlar tərəfindən dəstəkləndi, ölkədə siyasi sabitlik yarandı və dövlətimiz quruculuq yoluna qədəm qoydu.



Son illər əhalinin, ölkəmizin rifahı yaxşılaşdı, yüzlərlə parklar salındı, yollar abadlaşdırıldı, əfsanəvi körpülər tikildi, yeni kəndlər, qəsəbələr inşa edildi.

Hörmətli prezidentimiz, İlham Əliyev cənablarının operativ təşkilatçılığı sayəsində "Bakı-Tibilisi-Ceyhan" neft kəməri, Bakı-Ərzurum qaz kəməri vaxtında səmərəli çəkilməsi sayəsində, yüzlərlə ölkələri Azərbaycana bağladı. Bu inkişafa görə, indi dünya dövlətləri istəsələr də, istəməsələr də bizi dəstəkləməkdədirlər.

**X**əyalım məni o illərə apardı, Ulu Öndərlə olan görüşüm yada düşdü.....

1992-ci ilin dekabr ayı idi.Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu. Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim, heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmaz xaosa çevrilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, o dövrlərdə Azərbaycanda böyük hərc-mərcliklər nəticəsində vətəndaş müharibəsinin başlamasına zəmin yaranmışdı, qardaş qırğını başlamışdı. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi. Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi xilas etdi.

O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq. Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda, düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istədilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz vaxtında hakimiyyətə xalq tərəfindən gətirilən Heydər Əliyev cənabları onları bu fəlakətdən xilas etdi.

Üç saata qədər o müdrik insanla söhbət etdik. Olduqca sakit, səbr və təmkinlə bizi dinlədi. Müdrik, qayğılı, mavi okeanlar kimi sonsuz, dərin və mənalı gözləri ilə sanki insanların qəlbini, düşüncəsini oxuyurdu. Zaman keçdikcə, həqiqətən onun nə qədər uzaqgörən siyasətə malik olduğunu daha çox dərk etdim. O, Azərbaycanımızın inkişafı və dirçəldilməsi üçün bir çox müqavilələr və kontraktlar bağlayıb, dəyərli görüşlər keçirib. Bu müqavilələrlə o, Azərbaycanımızı dünya dövlətlərinə tanıtdı, dünya dövlətlərini Azərbaycana bağladı və dünya səhmdarlarını Azərbaycana sərmayə qoymağa sövq etdi. Azərbaycanımız üçün çox dəyərli olan bu müqavilələrdən biri də "Bakı-Tbilisi-Ceyhan"əsrin müqaviləsidir. Bu müqavilənin imzalanmasını düşünəndə, insana yalnız iqtisadi mənfəət və neft ixracatı gəlir. Lakin bu məsələ barədə dərindən düşünəndə görürük ki, müdrik insan, xalqımızın ulu öndəri, Heydər Əliyev bu müqavilə ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə, Avropanın bir sıra dövlətlərini, eləcə də ABŞ-nı və bu ölkələrlə əlaqəsi, bağlılığı olan ölkələri biri-birinə bağlayıb və sazişsiz, müqaviləsiz bu ölkələr arasında sanki sülh müqaviləsi imzalayıb. Bu ölkələr bundan belə biri-birinin müdafiəsinə qalxmağa, biri-birinin sözünü deməyə, arxa durmağa, yardım etməyə məcburdurlar. Çünki Ulu Öndərin uzaqgörən siyasəti sayəsində bu ölkələr özləri də bilmədən biri-birinə bağlandı və özü də elə güclü qüvvə ilə bağlandı ki, bu bağlılığı heç bir qüvvə poza bilməz.

**(davamı səh.9-da)**
**(Əvvəli səh. 8-də)**

www.arsivakurdi.org

499:1.QXD 25.09.2022 0:53 Page 5
www.arsivakurdi.org



# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ

## "BAKI-TBİLİSİ-CEYHAN" ƏSRİN DÜNYƏVİ SÜLH MÜQAVİLƏSİ



Hörmətli prezidentimiz İlham Əliyev cənabları vaxtında "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşasına başladı, onunla bərabər "Bakı-Qars" qaz kəmərinin bünövrəsini qoydu və həyata keçirdi. Azərbaycanımız üçün həyati əhəmiyyəti olan "Bakı-Axalkalaki-Qars" dəmir yolunun müqaviləsinə qol çəkdi və Gürcüstan, Türkiyə rəhbərləri ilə birlikdə, bu proyektin təməlini qoydu və başa çatmaq üzredir. . Bu müqavilələr bir çox ölkələrə böyük həyati əhəmiyyət kəsb etsə də, hər zaman bizi və bizim kimi ölkələri "boyunduruq"da saxlayan Rusiya kimi hegemon ölkələrə sərfəli deyildi. Neçə illərdir ki, Qarabağ məsələsini meydana atan və həllinə əngəl olan Rusiya, günü-gündən qüdrətlənən, güclənən və Avropa birliyinə, NATO-ya yaxınlaşan Azərbaycanı və Gürcüstanı işğal etmək üçün yeni yollar axtardı və Qarabağ kimi, babaları Nikolayın dövründən yandırılan ocağın odu artırıldı. Gürcüstanın səbirsiz prezidenti Saakaşvilinin ucbatından ocağa benzin töküldü. Nəticədə, Rusiya Gürcüstanı işğal etmək istədi.Böyük arzularla yaşayan Rusiya, əsrlərdir həzm etdiyi Bakı neftinin Avropaya nəqlini sindirə bilmirdi. Ona görə də Gürcüstanı işğal etmək istədi ki, bəlkə Azərbaycan və Azərbay- can nefti onun ixtiyarına keçsin və Azərbaycan yenidən Rusiyanın boyunduruğuna girsin.

Lakin Rusiya hələ də başa dyşmək istəmir ki, ölməz Ümummilli lider Böyük Heydər Əliyev cənabları Azərbaycan Respublikası, Azerbaycan xalqı üçün elə bir iqtisadi-siyasi yol qoyub gedib ki, bundan belə istəsələr də Azərbaysanı Rusiyanın əsarəti altına sala bilməyəcəklər. Necəki Rusiya Gürcüstanı işğal edə bilmədi və Gürcüstandan çıxarılarkən Osetiyanı və Abxaziyanı işğal edərək, müstəqil dövlət elan etdi. Özü də düşünmədən başını bəlaya saldı.

Onda görəsən Rusiya yüz illərdir öz azadlıqları uğrunda mübarizə aparan çeçen xalqının və Çeçenistanın, Tatarıstanın, Başqırdstanın və digər muxtar vilayətlərin müstəqilliyini niyə vermir və niyə tanımır? .Deməli, inamla deyə bilərik ki, ölməz Ümummilli liderimiz Böyük Heydər Əliyev dühası və Azərbaycan Respublikasının prezidenti, hörmətli İlham Əliyev zəkası sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsi Gürcüstanı işğal olmaqdan xilas etdi.Və bu müqavilə sayəsində Azərbaycanla Gürcüstan arasında birdəfəlik sabitliyin təməl daşının qoyulması deməkdir və Gürcüstan məsələsi buna sübutdur. Bütün dünya ictimaiyyətinin gözü qarşısında Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsinə imza atmış ölkələr və bilavasitə bu proyektə bağlı olan şirkətlər qalxdı, Rusiyaya beynəlxalq qanunlar çərçivəsində təsir etdilər və işğalçı rus ordusunu Gürcüstandan çıxartdılar. Və Gürcüstanın NATO-ya üzv olması məsələsi sürətləndirildi. Bu məsələləri görən ermənilər də bu həqiqəti görür və Azərbay- canla olan konfliktin həlli yollarını axtarır. Artıq ermənilər də görür ki, Rusiya onları çıxılmaz bəlaya salıb və bu bəlanın həlli torpaqların qayıdışı və qonşuluqda sülh şəraitində yaşamaqdır. Ona görə də "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsini, "Bakı-Tbilisi-Ceyhan" **əsrin dünyəvi sülh müqaviləsi** adlandırsaq daha düzgün olar.

Bəli, danılmaz faktdır ki, bu gün minlərlə müxtəlif dünya ölkələrinin şirkətləri, səhmdarları Azərbaycanda bünövrə salıb çalışırlar. Azərbaycanımız günügündən qüdrətlənir, inkişaf edir, gözəl binalar ucaldılır, əvəzolunmaz yollar salınır, əfsanəvi körpülər qurulur, fabrik və zavodlar açılır. Ölkəmizin hansı guşəsinə gedirsən get gözəl parklar, istirahət zonaları, abad yollar görərsən. Respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində yeni, gözəl göz oxşayan binalar tikilir, ucqar rayonlarımıza qaz və rahat yollar çəkilir. Küçələrimizdə, həyətlərimizdə, əyalətlərimizdə müxtəlif çeşidli və markalı rahat maşınlar göz oxşayır. Xalqımızın maddi durumu günü-gündən yaxşılaşır, əlil və qocaların, imtiyazlı vətəndaşlarımızın maaşları artır. Xalqımız firəvan həyat sürməyə başlayıb.

Biz inanırıq ki, xalqımız Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əli- yev siyasətini dəstəkləyəcək! Azərbaycan xalqı Böyük Heydər Əliyev ideyalarının həyata keçirilməsi naminə, ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün, möhtərəm prezidentimiz, İlham Əliyev cənablarına yaxın dəstək olacağıq. Hörmətli prezidentimiz İlham Əliyev cənablarının indiki xarici və daxili siyasəti nəticəsində Vətənimiz günügündən çiçəklənir, gözəlləşir. Biz inanırıq ki, Vətənimiz Azərbaysan dün- yanın inkişaf etmiş ölkələrinin ön sıralarında olacaqdır və hörmətli prezidentimiz İlham Əliyev cənablarının bu siyasəti nəticəsində nəinki təkcə Azərbaycanda, elə- cə də Qafqazda sülh və əmin-amanlıq bərpa olacaq və dünyanın qüdrətli ölkələri bizimlə dostluq və əməkdaşlıq etməyə çalışacaqlar.

Xalqımız Respublikamızda baş verən ictimai-siyasi hadisələri görür, dəyərləndirir və lazımınca qiymətləndirir.

Hamıya məlumdur ki, hörmətli prezidentimiz İlham Əliyev cənabları, istər ölkə daxilində, istərsə də dünya dövlətləri arasında, apardığı müdrik siyasəti nəticəsində dünya dövlətləri günügündən qüdrətlənən Azərbaysanımızla, onun rəhbəri hörmətli prezidentimiz İlham Əliyev cənabları ilə hesablaşırlar və ona hörmət və qayğı ilə yanaşırlar belə yanaşma xalqımız üçün, Respublikamız üçün fəxrdir.



Bəli, bu gün hörmətli Prezidentimiz İlham Əliyevin xoş sədaları respublikamızın hər yerindən gəlir.Əyalətlərimizin inkişafı üçün, inamla demək olar ki, hər gün bir neçə parklar, yeni məktəb binaları, xəstəxanalar, idman kompleksləri, fabrik və zavodlar,müxtəlif elm ocaqlarının açılışını edir. Bu işlər inkar edilməzdir. Xalqın gözü tərəzidir deyiblər. Biz inanırıq ki, xalqımız ölməz Ulu Öndər Böyük Heydər Əliyev cənablarının siyasətini həyata keçirən, hörmətli prezidentimiz İlham Əliyev cənablarına arxa olacaqlar.

İnamla demək olar ki, prezidentimiz İlham Əliyev cənablarının indiki siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənir, gözəlləşir və dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarıda özünə yer tutub.





*Hazırladı:*

***Tahir SÜLEYMAN***

www.arsivakurdi.org

# MAHMUD BƏY SƏFİKÜRDSKİ

Mahmud bəy Bala bəy oğlu Səfikürdski
Doğum tarixi 1898-ci il
Doğum yeri Səfikürd kəndi
Vəfatı 1977-ci il

**Həyatı**

Bala bəyin üçüncü oğlu Mahmud bəy 1898-ci ildə Səfikürd kəndində dünyaya boy göstərmişdi. 1909-cu ildə Gəncə gimnaziyasına daxil olmuşdu. Gimnaziyanı bitirmədən orduya çağırılmışdı. Rus qoşunlarının tərkibində rumın cəbhəsində döyüşlərdə iştirak etmişdi. Hərbi xidmətdən sonra Gəncəyə dönmüşdü. Gəncənin müsəlman-türk əhalisinin rusların himayəsi ilə ermənilər tərəfindən kütləvi şəkildə qırılmasının qarşısının alınmasında yeni yaradılmış «Yaşıl qvardiya» adlı özünmüdafiə dəstəsinin tərkibində çıxış etmişdi. «Yaşıl qvardiya» əsasən gənclərdən, tələbələrdən ibarət idi. Mahmud bəy Səfikürdskinin döyüş təcrübəsini nəzərə alaraq, onu qvardiyanının sədr müavini təyin etmişdilər. Gimnaziyanı 1919-cu ildə başa vurduqdan sonra bir müddət Gəncə Dairə məhkəməsində müstəntiqliyə namizəd kimi hüquq elminin incəliklərini öyrənməyə çalışmışdı. Elə həmin il o, Bakıda BDU-nin tibb fakültəsinə daxil olmuşdu. Ailə vəziyyəti və maliyyə çətinlikləri ilə əlaqədar olaraq işləmək fikrinə düşmüş və ƏMT-nın rəisi Nağı bəy Şeyxzamanlı Gəncə hadisələrindən Mahmud bəyi tanıyırdı. Və şübhəsiz ki, onun ƏMT rəisinin müavini kimi mürəkkəb və məsuliyyətli vəzifəyə təyin edilməsi həm də onların bir-birilərini yaxşı tanımalarından irəli gəlirdi. Arxiv materiallarından məlum olur ki, Mahmud bəy Səfikürdski ƏMT-da rəis müavini kimi 1919-cu ildə noyabr ayının 15-dən martın 6-dək ƏMT-nın (əksinqilabla mübarizə təşkilatının) rəis müavini vəzifəsində çalışmışdı. O da bu vəzifədə hümmətçiləri təmsil edirdi. Çünki razılığa əsasən, ƏMT rəhbərliyi iki partiyadan təmsil olunmalı idi. ƏMT-nın rəis müavini vəzifəsi də hümmətçilərin payına düşürdü. Ancaq bütün bunlara baxmayaraq, arxiv sənədlərinin də təsdiq etdiyi kimi Mahmud bəy bu vəzifədə özünu layiqincə apardı, gənc respublikanın təhlükəsizliyinin təmin edilməsində öz bacarığını əsirgəmədi. Xüsusən də erməni cəsuslarına və denikinçilərə qarşı mübarizədə Mahmud bəy Səfikürdski bütün imkanlarını səfərbər etmişdi. Onu da deyək ki, əldə edilmiş materialların (MTN-nin arxivi, PR-1752 saylı istintaq işi) bir qismində onun bolşeviklərə qarşı da çıxışı qeyd edilir. Buna əlavə olaraq onu da demək olar ki, Nağı bəylə Mahmud bəyin barəsində söylənilən fikrə bir söykənəkdir. 28 aprel işğalından sonra bir qrup hümmətçi Azərbaycan Fövqəladə Komissiyasında işə qəbul edildi. Onlardan biri də Mahmud bəy idi. Bu elə çox uzun çəkmədi. 22 noyabr 1920-ci ildə onun həbs edilməsi barədə 1906 saylı order imzalandı. Bir gün sonra onu Quba şəhərində həbs edib Bakıya göndərdilər. Onu kommunistlərə qarşı çıxış etməkdə günahlandırırdılar. Ziddiyyətli ifadələrin nəticəsində Mahmud bəy Səfikürdski haqqında 21 yanvar 1921-ci ildə qərar çıxırıldı: o, tutduğu vəzifəsində qala bilməz. Ancaq onun «cinayət»ləri sübuta yetmədiyindən həbsdən azad etmişdi. Təqiblər davam edirdi. Belə bir vəziyyətdə Mahmud bəy Səfikürdski Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Öncə Yuqoslaviyada yaşayıb ticarətlə məşğul oldu. Sonra Türkiyədə yerləşdi. Mahmud bəy 1977-ci ildə vəfat edib.

Mahmud bəyin Əli bəy adlı oğlu, Mələk xanım, Bilqeys xanım və Leyla xanım adlı qızları var.

## Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib

### Yaşayış yerindən çoxlu qədim əşyaları tapılıb



***Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib. «Göl yeri» ərazisində aparılan qazıntı nəticələrinin qədim dövr tarxinin öyrənilməsinə töhvə olduğu bildirilir. Yaşayış yerindən çiy kərpij , qazma şəklində evlər, təsərrüfat quyuları, ojaq yerləri, 3 insan skeleti, saxsı qablar və çoxlu sayda bəzək əşyaları tapılıb. Ərazidə tədqiqat aparan mütəxəssislərin fikrincə qazıntı işlərinin nəticəsi Azərbayjan arxeologiyasında az öyrənilən və mübahisələrə səbəb olan məsələlərə aydınlıq gətirəcək. Yeniliklər əsasən ilk Tunj dövrünə qədərki mərhələni əhatə edir.***

Tapılan kiçik öküz fiquru isə bu dövrdə insanların «toxa» əkinçiliyindən «xış»a keçdiyinə dəlalət edir. Bundan başqa metaldan dəmir ujluqlu kəsiji alətlərin hazırlanmasında istifadə olunan «bitum» məhlulu da aşkarlanıb ki, bu əvvəlki arxeoloci qazıntılar zamanı az miqdarda olduğundan indiyədək onun tərkibi öyrənilməmiş qalıb.

Dövrlərə şahidlik edən bu daş natiqlərin hər parçası tarixin qaranlıq səhiflərini nurlandıran məşəl kimidir. O işıqda isə əcdalarımızın getdiyi yollara yolçuluq etmək insana mənəvi rahatlıq verir.

# Analoqu olmayan kurqan

### Abidə tunc dövrünə, b.e.ə. III minilliyə aid edilir

***Son zamanlar Goranboy rayonunun Səfikürd kəndi ətrafında geniş çöl-tədqiqat işləri aparılıb. Bu işlərin nəticəsində isə rayon üçün ilkdəfə olaraq eneolit dövrünə aid yaşayış məskəni aşkar edilib. Həmin yaşayış məskənində aparılan kəşfiyyat xarakterli qazıntı nəticəsindəabidənin e.ə. V minilliyə aid olduğu müəyyən edilib.***

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu Müzəffər Hüseynovunsözlərinə görə, burada eyni zamanda çoxlu saxsı məmulatlar da aşkar olunub. Bundan əlavə, kənd əhəng daşlarından tikilib. Kurqanaltı kamera isəsərdabə tiplidir. Sərdabənin divarlarının hündürlüyü 145 sm-dir. Bu hündürlüyü həm də sərdabənin hündürlüyü kimi vermək olar.

Sərdabənin divarları isə çox yaxşı qalıb. Enli inşa edilmiş divarların şimal tərəfdə eni 1 metr 10 sm, cənub və qərb tərəfdə isə 1 metr 60sm-dir. Sərdabənin içəridən ölçüsü şərq-qərb istiqamətində 3 metr 70 sm, şimal-cənub istiqamətində 3 metr 40 sm-dir. Sərdabəyə giriş isəşərqdəndir. Girişin eni 1 metr 40 sm, giriş dəhlizinin uzunluğu isə 4 metr 30 sm-dir. Giriş dəhlizinin kənarındakı divarlar da ağ əhəng daşındantikilib. Girişdə 1 metr 70 sm plan sərdabənin ağzı 60-65 sm ölçüdə, qalınlığı 8 sm olan ağ əhəng daşı ilə örtülüb. Divarların ətrafi isə iki cərgəçay daşları ilə bərkidilib.

**Sərdabədə 19 insan skeleti aşkar olunub**

Sərdabənin içərisində onun 4 küncündə diametrləri 25x27 sm, dərinlikləri 45-50 sm olan dirək yerləri də aşkar edilib. Dirək yerləririniçərisindən aşkar olunan kiçik və orta ölçülü çaydaşlarına əsasən gənc arxeoloq Müzəffər Hüseynov onu da ehtimal edir ki, bu dirəklərin ətrafıçay daşları ilə möhkəmləndirilib. Kameranın üst hissəsi ağac tirlərlə örtülüb. Bunu qazıntı zamanı sərdabənin içərisində yanıb kömür olan ağacqalıqları da sübut edir. Bəzi agac qalıqlarının diametri 30 sm-ə, uzunlugu isə 1 metrə qədər qalıb.

Sərdabənin üstü ağacla döşəndikdən sonra kameranın üzəri iri qaya daşları ilə təpə formasında qurulub. Sərdabənin döşəməsi ağ gilləsuyandıqdan sonra içərisi tamamilə münasib qaya daşları ilə döşənib. Skelet və bütün arxepluji materiallar bundan sonra səliqə ilə sərdabəyəqoyulub. Sərdabə tipli bu qəbirdə 19 insan skeleti, 23 saxsı qab, 213 muncuq, 10 ədəd iy başlığı aşkar edilib. İy başlığının 9-ü sümükdən, biriisə daşdan hazırlanıb. Daşdan hazırlanan iy başlığı çox ustalıqla hazırlanıb, üzəri üçbucaq formalı naxışlarla bəzədilib. 10 ədəd iy başlığının birqəbirdə aşkar edilməsi faktı ilk tunc dövrü üçün nadir hadisə hesab edilə bilər. Sərdabədən aşkar olunan skeletlər sağ və sol yanı üstə,yarıbükülü, baş tərəfi divara söykənmiş vəziyyətdə qoyulub.

Torpaq qəbirlər aşkar edilib

Goranboyun Səfikürd kəndində tədqiqatlar aparan Müzəffər Hüseynov sonda onu da bildirdi ki, tədqiqatlar zamanı ilk tunc dövrünə aidkurqanlar-ətrafinda son tunc-ilk dəmir dövrünə aid ikitorpaq qəbir tapılıb və qazıntı nəticəsində qəbirlərdən gil qablar, müxtəlif materiallardan, tuncdan bəzək əşyaları - muncuqlar, qolbaq yə sırğalaraşkar edilib. Ekspedisiyanın əsas uğurlarından biri Səfikurd kəndi yaxınlığında onun cənub-şərq tərəfindən ilk tunc dövrünə, b.e.ə. III minilliyəaid kurqan abidəsinin aşkar edilərək qazılması olub.

Arxeoloq Müzəffər Hüseynov onu da bildirdi ki, kurqanın diametri 16 metr, hündürlüyü 2,8 metrdir. Kurqan hündürlüyü 18-20 metrolan uzunsov-oval formalı təpənin üzərində qurulub. Qazıntı zamanı kurqan örtüyündə son tunc dövrünə aid bir qəbir abidəsi də aşkar edilərəkqazılıb. Kurqan örtüyündən aşkar olmuş sallama qəbir 2x1 metr ölçüdə olub, 110 sm dərinlikdə dəfn edilib.

Qəbirdə müxtəlif forma yə ölçüdə 5 ədəd saxsı qab, əqiqdən hazırlanan 72 ədəd muncuq, 1ədəd tunc iynə, 3 ədəd kəsici alət aşkaredilib. Əsas kurqanaltı qəbir çox maraqlıdır.

Arxeoloq M.Hüseynov onu da bildirdi kı, bu qəbir kamerasının divarları iri ölçülü dan 150-200 metr şimal-şərqdə. son tunc-ilk dəmir dövrünə aid torpaq qəbir də aşkar edilib. Qəbir 80 sm dərinlikdə yerləşməkləşərq-qərb iştiqamətində uzunluğu 2 metr, eni 1 metr yarımdır. Qəbirdən sol yanı üstə qoyulmuş skeletin ətrafında isə 3 saxsı qab, 48 ədəd əqiqmuncuq, 1 ədəd tunc muncuq, 1 ədəd tunq qolbaq, 1 ədəd tunc sırğa, 2 ədəd dəvəgözü kəsici alət askar edilib.

Digər torpaq qəbir Səfikürdün şimal-şərq_tərəfindən aşkar edilib. 2 metr 5 sm dərinlikdə aşkar edilən torpaq qəbir kamerası 160x90sm ölçüdədk. Qəbirdən yarımbükülü vəziyyətdə sağ yanı ustə qoyulan skeletın ətrafindan 3 ədəd saxsı qab, 12 ədəd muncuq, 2 ədəd kəsici alətaşkar edilib. Goranboy rayonu ərazisində, xüsusən Səfikürd kəndi ətrafında aparılan apxeoloji qazıntılar zamanı eneolit, ilk tunc, son tunc- ilkdəmir dövrü mədəniyyətlərinin öyrənilməsi baxımından xeyli nailiyyətlər əldə edilib. Tezliklə nəzərdə tutulan tədqiqatlara vəsait ayrılan kimiSəfikürd kəndində yə rayonun digər istiqamətlərində yeni kəşfiyyat ışləri başlanacaq.

## Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib

***Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Müzəffər Hüseynov: "Hazırda ərazinin hələ ki, 100 kvadratmetri araşdırılır”. Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Tarixi abidə rayonun Səfikürd kəndi ərazisində tapılıb. Ekspedisiya qrupunun üzvü, arxeoloq Müzəffər Hüseynovun sözlərinə görə 2 il əvvəl aparılan tədqiqatlar zamanı bu ərazidə içərisində 10-dan çox insanın dəfn olunduğu kurqan aşkar edilmişdi.***

“Sonradan aparılan araşdırmalar nəticəsində isə müəyyənləşib ki, qara arxac adlanan bu sahədə yaşayış məskəni də mövcud olub və yaşayış yeri təqribən 2 hektar ərazini əhatə edib. Qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələri hələlik bu ərazidə yaşayan insanların toxuculuq və dulusçuluqla məşğul olduğuna dəlalət edir”, - deyə o bildirib.

Bundan başqa arxeoloqların ehtimallarına görə tapılan heyvan sümükləri vasitəsilə o dövrün heyvanat aləmi barədə də informasiya əldə etmək mümkün olacaq.

Müzəffər Hüseynov əlavə edib ki, 2 ha ərazidə yaşayan insanların həm yaşayış yerləri, həm də təsərrüfat sahələri var. “Yəni burada onlar həm çörəklər bişirib, həm də, qab-qacaq hazırlayıblar. Hazırda biz onun hələlik 100 kvadratmetrini araşdırırıq”, - deyə o vurğulayıb.

499:1.QXD 25.09.2022 0:53 Page 7



# ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

*(Əvvəli ötən sayımızda)*

1453-cü ildə Həsən bəy (Uzun Həsən) Amid qalasında (Diyarbəkirdədir) taxta oturdu. O, az müddət ərzində Kürdüstanın bir hissəsini Azərbaycan, Ermənistan, İraq-Əcəm, İraq-Ərəb və Fars torpaqlarını öz hakimiyyətinə tabe etdi. Onun hakimiyyəti dövründə Kürdüstanın bir sıra əmirlikləri də işğal edildi. O, həmin əmirlikləri qarət edir və yandırırdı. Mənbələrdəki məlumata görə Ərzincan vilayətinin əmiri Məlik Xələf müqavimətsiz təslim olmaqla bərabər, 10 batman[19] qızıl və 50 batman gümüş verməklə həmin vilayəti məhv olmaqdan xilas etmişdir (43, 241-242).

Həsən bəyin xələfləri zamanında Ağqoyunlu hakimiyyəti zəiflədiyinə görə Kürdüstan yenə də Osmanlı, Misir hökumətlərinin nüfuzu dairəsinə düşmüşdü. Beləliklə, Kürdüstan XV əsrin axırınadək dəfələrlə bir istilaçıdan digər istilaçının əlinə keçmiş və onun iqtisadiyyatı dah da pozulmuşdu. Lakin o dövrlərdə bir sıra kürd əmirlikləri öz müstəqilliklərini saxlaya bilmişdi (76, 240-266).

Uzun zaman davam edən xarici basqınlar və daxili tayfa müharibələri nəticəsində taqətdən düşən bir xalqın-kürdlərin XVI əsrin əvvəllərində Osmanlı və Səfəvi dövlətləri kimi qüvvətli qonşuları var idi. Əvvəldə olduğu kimi, həmin dövrdə də müxtəlif kürd tayfaları arasında əmirlik vəzifəsi və torpaq mülkiyyəti nəsildən nəslə keçən monarxiya sistemli əmirliklərə bölünürdü. Bu əmirliklərin ictimai dayağı tayfa üzvləri hesab olunurdu. Onun iqtisadi əsasını isə torpaq üzərində xırda feodal, xüsusi mülkiyyət forması və bu mülkiyyətə arxalanan istismar üsulu təşkil edirdi. Tayfanın üzvləri əmir üçün müxtəlif mükəlləfiyyətlər daşıyır və onun hərbi səfərlərində iştirak edirdi. Kürdlər arasında feodal üçün hərbi xidmət əsrlər boyu daimi bir peşə şəklini almışdı. Buna görə də kürd əmirləri qüvvətli dövlət qarşısında özünü hərbi xidmətçi, zəif dövlət qarşısında isə müstəqil bir hökmdar kimi hiss edirdi. Bidlisinin qeyd etdiyinə görə kürdlər arasında qüvvətli və sayca üstünlük təşkil edən tayfalar əşirət (76, 18) adlanırlar. XVI əsrin əvvəllərində Kürdüstanda bir neçə qüvvətli və nisbətən müstəqil əşirətlər təsadüf olunurdu. Bunlardan biri mərkəzi Məraş əyaləti olmaqla, sərəncamında çoxlu kürd əmirləri olan türkmən Əlaəddövlə Zülqədər, digəri isə mərkəzi Sabuçbulaq (Mehabad) olmaqla Mukri tayfasının başçısı Seyfəddin oğlu Sarom idi. Keçmişdə olduğu kimi, həmin əsrdə də əmirlər arasında davam edən daxili vuruşmalar Kürdüstanın siyasi cəhətcə birləşməsinə imkan vermirdi. Bidlisi öz əsərində Kürdüstandakı bu vəziyyəti göstərərək yazır: «Hər biri bir tərəfdə özbaşına mütləqiyyət bayrağı qaldıraraq, sərbəst olaraq dağ zirvəsində daldalanır… Aralarında Tövhiddən[21] başqa heç bir mənada birlik yoxdur» (76, 16-17; 103, 450).

Beləliklə, XVI əsrin əvvəllərində hələ siyasi cəhətdən mərkəzləşməmiş kürd əmirləri başqa təcavüzdən özlərini qorumaq üçün qonşuluqlarındakı iki qüvvətli dövlətdən birinə istinad etməli idilər. Sünni məzhəbinə yaxın olan kürd əmirləri osmanlılar tərəfə meyl göstərməli idilər. Lakin kürd xalqı ilə Azərbaycan xalqı arasındakı tarixi döstluq və əməkdaşlıq kürdlərin əksəriyyətində Səfəvilər dövlətinə arxalanmağa meyli artırırdı (22, 7). Çünki kürd xalqı özünü xarici basqınlardan qorumaq üçün Azərbaycan ərazisində təşkil olan Səfəvilər dövlətinə ümid gözü ilə baxırdı. Lakin I Şah İsmayıl Səfəvinin Kürdüstan haqqındakı yanlış siyasəti bu ümidi heçə çıxartdı. Şahın Kürdüstan üzərinə ilk hücumu Savuçbulaq nahiyyəsini qəsb etməklə başlandı.

I Şah İsmayıl 1505-ci ildə Qızılbaş sərkərdələrindən Durmuş xan Şamlu, Əbdi bəy Şamlu, Saruəli Möhürdar Təkəlu, Bayram bəy Qaramanlu və Xulafa bəyin başçılığı ilə Sarom üzərinə böyük ordu göndərdi. Lakin Sarom bəy bu müharibədə qalib gəldi və öz müstəqilliyini qorudu. O dövrün mənbələrindəki məlumata görə həmin müharibədə qızılbaşlar çoxlu itki verdilər və adları çəkilən sərkərdələrdən Durmuş xan Şamlu, Bayram bəy (59, 90) və Xulafa bəy salamat geri qayıtdılar.

«Həbib əs-Siyər» əsərinin müəllifi bu hadisədən bəhs edərkən I Şah İsmayıl Səfəvinin Kürdüstan haqqındakı istilaçılıq siyasətini pərdələyərək yazır: «Sarom Kürdüstan qarətçiləri ilə birlikdə yol kəsməklə məşğul olduğu üçün şah onun üzərinə qoşun göndərdi. Sarom qaçdı və dinsiz kürdlərdən bir çoxları öldürüldü. Şah ordusu böyük qənimətlə geri qayıtdı» (112, 42). Qunabadi qeyd edir ki: «Şah ordusu ilə kürd dilavərləri arasında şiddətli müharibə oldu. Sarom qaçdı, kürdlərin çoxu qılıncdan keçrildi və qan su yerinə axdı» (113, 102).

Bidlisi göstərir ki, «Sarom Qızılbaşların təcavüzündən özünü qorumaq üçün I Sultan Səlim xana tabe oldu» (76, 289).

Bizim üçün Bidlisinin yazdığı daha doğru və düzgün məlumat hesab edilir çünki o, Səfəvilər dövləti ilə kürd əmirləri arasında gedən vuruşmaları öz əsərində dəqiq surətdə qeyd edir və dövrün ziddiyyətlərini müəyyən qədər açıb göstərirdi.

Müasir İran tədqiqatçısı Rza Pazuki[22] 1507-1508-ci illərin hadisələrindən bəhs edərək Saromın Gürcüstan hakimi olduğunu qeyd edir və 1507-ci ildə qızılbaşlar tərəfindən öldürüldüyünü irəli sürür. Mənbələrə istinadən həmin müəllifin müddəası düzgün deyildir (70, 285).

